**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# SƏNAYE SAHƏLƏRİNİN İNNOVASİYALAŞDIRILMASININ MALİYYƏ PROBLEMLƏRİ VƏ HƏLLİ İSTİQAMƏTLƏRİ

İxtisas: 5312.01 -“Sahə iqtisadiyyatı”
Elm sahəsi: 53 – İqtisad

İddiaçı: **Zeynalabdin Arif oğlu Ələkbərov**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Odlar Yurdu Universitetinin "İqtisadiyyat və iqtisadi münasibətlər" kafedrasında yerinə yetirilmişdir

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**Mübariz Məmmədhüseyn oğlu Bağırov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Məhəbbət Aşir oğlu Məmmədov**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Sahib Məmməd oğlu Məmmədov**

iqtisad üzrə fəlsəfə doktoru
**Ellada Məhəmməd qızı Xankişiyeva**

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının AR ETN İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.10 Dissertasiya Şurası.

Dissertasiya şurasının sədri: __________ iqtisad elmləri doktoru, professor
**Nazim Müzəffərli (İmanov)**

Dissertasiya şurasının elmi katibi __________ iqtisad üzrə fəlsəfə doktoru
**Sevda Məmməd qızı Seyidova**

Elmi seminarın sədri: __________ iqtisad elmləri doktoru, professor
**Tərbiz Nəsib oğlu Əliyev**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Qlobal transformasiyalar dərinləşdikcə dünya iqtisadiyyatının şərtləri və əsas mexanizmləri köklü şəkildə deformasiyalara uğramaqdadır. Bu proseslər müxtəlif istiqamətlərdə baş verir və əsaslı dəyişkiliklər elm və texnologiyalar tutumlu sənaye sahələrində daha çox ortaya çıxır. Belə ki, yüksək texnologiyaların intensiv tətbiqi, "ağıllı" texnologiyaların tətbiqinə geniş yer verilməsi, rəqəmsal mexanizmlərin üstünlük təşkil etməsi və innovatik yanaşmaların ön plana çıxması trendləri diqqət çəkir. Bu sırada önəmli fəaliyyət istiqamətlərindən biri sənayedir və sənayenin müxtəlif sahələrinin innovasiyalaşdırılması, yeni innovasiyaların işlənilməsi, mənimsənilməsi və istehsal (xidmət) sahələrinə tətbiq olunması məsələləri aktual olaraq qalmaqdadır.

Dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələrində yeni texnologiyaların işlənməsinə və tətbiqinə, elmi-tədqiqatların aparılmasına, innovasiya fəaliyyətinin maksimum məhsuldar və səmərəli təşkilinə, innovasiya ideyalarının son mərhələyədək reallaşdırılmasına yüz milyardlarla dollar vəsait xərclənir və stimullaşdırıcı mexanizmlər tətbiq olunur. Son illərdə bu proseslər iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə də xüsusi diqqət mərkəzindədir. Bu qeyd olunanlar nöqteyi-nəzərindən Azərbaycan istisna təşkil etmir. Müstəqilliyin bərpasından sonra ölkəmizdə sənaye sahələrinin inkişafına yeni baxışlar formalaşdırılmış və konseptual əsaslar müəyyənləşdirilmişdir. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü, müəllifliyi və tarixi qətiyəti nəticəsində həyata keçirilən neft strategiyasının hesabına mütləq üstünlüklərə malik qabaqcıl və çoxfunksiyalı neftqaz sənayesi sahəsinin formalaşdırılması və inkişaf etdirilməsi mümkün olmuşdur. Son 30 ildə Azərbaycan iqtisadiyyatına 320 mlrd. dollar investisiya yatırılmışdır və bunun yarısı təxminən xarici investisiyalardır. Ümumilikdə yatırılan investisiyaların 60 %-i neft-qaz sənayesinin payına düşür. Yatırlan investisiyaların sayəsində ölkəmizə qabaqcıl idarəetmə metodları, yüksək texnologiyalar, həmçinin yeni innovasiyalar gətirilmişdir. İqtisadiyyatımızın lokomotivi olan neft-

qaz sənayesinin gəlirləri hesabına ölkəmizdə digər sənaye sahələrinin resurslarının mobilizasiya edilməsi, müasir və rəqabət qabiliyyətli istehsal infrastrukturunun yaradılması, ixracyönlü istehsalın həcminin artırılması mümkün olmuşdur.

Biz bu tədqiqat işində əsas etibarı ilə qeyri-neftqaz sənaye sahələrinin inkişaf proseslərindən və xüsusiyyətlərindən, resurs təminatından yanaşmaqla, ölkəmizin sənaye sahələrinin innovasiyalaşdırılması problemlərinə daha çox diqqət yönəltmişik və əvvəldə qeyd etdiyimiz kimi bu sahədə həllini gözləyən əsaslı problemlərdən biri məhz maliyyə problemidir. Əvvəlcədən təəssüf hissi ilə qeyd etmək istəyərdik ki, Azərbaycanda innovasiya fəaliyyətinin və bununla bağlı faktiki nəticələrin emprik bazası zəifdir, dəqiq uçot aparılmır və rəsmi statistika nəşrlərində yer alan statistik məlumatlar mövcud reallığı əks etdirmir.

Ölkəmiz hazırda iri miqyaslı iqtisadi islahatlar həyata keçirməkdədir və qalib ölkə kimi işğaldan azad olunmuş ərazilərin bərpasını reallaşdırır. Bu proseslərdə yüksək texnologiyalar, ilk növbədə "ağıllı" texnologiyalar və innovatik yanaşmalar ön plandadır. Eyni zamanda, Covid-19 postpandemiyası postulatlarına adekvat olaraq, milli iqtisadiyyatın artım tempinin bərpa edilməsi və sürətləndirilməsində qeyri-neftqaz sənayesi sahələrinin potensialı əsas götürülməkdədir. Bununla bağlı olaraq bu sənaye sahələrinin innovasiyalaşdırılmasına davamlı investisiyalar və iri maliyyə resursları – səmərəli maliyyə təminatı mexanizmləri tələb olunur[1].

Dissertasiya işinin mövzusunun işlənmə dərəcəsi ilə bağlı qeyd edə bilərik ki, sənayenin inkişaf etdirilməsi problemlərinin həlli, ayrı-ayrı sənaye sahələrinin innovasiyalaşdırılmasının maliyyə problemləri və həlli istiqamətləri üzrə fundamental elmi əsərlər yazılmış, nəzəri-metodoloji baxışlar formalaşdırılmışdır.

Azərbaycanlı alimlərdən – akademik Z.Ə.Səmədzadə, Ə.C.Muradov, Ə.Ə.Ələkbərov, A.Ş.Şəkərəliyev, T.H.Hüseynov, B.X.Ataşov, M.A.Əhmədov, Z.F.Məmmədov, T.N.Əliyev, Ş.T.Əliyev, Z.M.Nəcəfov, O.Ə.Səfərov, Ə.Q.Əliyev,

[1] Ataşov, B.X. Maliyyə bazarları. – Bakı: Kooperasiya nəşriyyatı, – 2016. – s. 128.

A.D.Hüseynova, V.Ə.Qasımlı, İ.A.Aslanzadə, A.H.Tağıyev və başqaları tədqiqat işində baxılan problemlər üzrə elmi əsərlərin müəllifidirlər. Xarici tədqiqatçı-alimlərin elmi əsərlərində sənaye sahələrinin inkişaf etdirilməsi və onların innovasiyalaşdırılmasının maliyyə problemləri ilə bağlı tədqiqatlar vardır. Bunlar öz əksini – A.Smit, A.Marşall, D.Rikardo, C.S.Mill, J.B.Say, J.M.Keyns, J.A.Şumpeter, P.A.Samuelson, P.R.Kruqman, M.E.Porter, R.M.Solou, X.D.Van, D.A.Vaxoviç, İ.Y.Lukaseviç, Z.P.Musostov, T.M.Dudayev, İ.M.Vaşko və başqalarının elmi əsərlərində tapmışdir.

Həmin tədqiqatların əhəmiyyətini azaltmadan onu da qeyd etmək lazım gəlir ki, son onilliklərdə dünya iqtisadi proseslərində transformasiyaların dərinləşməsi, xüsusilə sənaye sahələrinin yüksək texnologiyaların tətbiqi sahəsində daha sürətlə inkişaf etməsi, innovasiyalara tələbatın artması, bu sahədə mütərəqqi dünya təcrübəsinin öyrənilməsi və tətbiqi ilə bağlı işlək mexanizmlərin hazırlanması, balanslı dövlət siyasətinin formalaşdıırlması və reallaşdırılması, sənaye sahələrinin innovasiyalaşdırılmasının sürətləndirilməsinə imkan verən iri innovasiya-investisiya layihələrinin hazırlanması və həyata keçirilməsi üçün həllini gözləyən problemlərdən biri kimi sənayenin innovasiyalaşdırılmasının maliyyə probleminin fundamental tədqiqata, araşdırmaların aparılmasına və müvafiq həll yollarının müəyyənləşdirilməsinə ehtiyac vardır. Bu qeyd olunanlar dissertasiya işinin mövzusunun aktuallığının ifadəsi kimi xarakterizə olunur.

**Tədqiqatın obyekti** Azərbaycanın sənaye sektorunun qeyri-neftqaz sənayesi sahələri və subyektləridir.

**Tədqiqatın predmeti** isə müasir dövrdə sənaye sahələrinin fəaliyyətində baş verən proseslər, tətbiq edilən mexanizmlər, onların innovasiyalaşdırılmasının maliyyə problemlərinin həlli istiqamətlərinin müəyyənləşdirilməsindən ibarətdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi sənaye sahələrinin innovasiyalaşdırılmasının maliyyə problemlərinin araşdırılması və adekvat həlli yollarının

müəyyənləşdirilməsidir. İşdə bunlarla əlaqədar olaraq bir qrup vəzifələr qarşıya qoyulmuşdur:

- Sənaye sahələrinin innovasiyalaşdırılmasının maliyyə təminatının nəzəri əsaslarının öyrənilməsi və ümumiləşdirilməsi;
- Sənaye sahələrinin innovasiyalaşdırılmasında maliyyə problemlərinə metodoloji yanaşmaların müəyyənləşdirilməsi;
- Beynəlxalq təcrübədə daha çox mütərəqqi nümunə kimi baxılan sənaye sahələrinin innovasiyalaşdırılmasının maliyyə problemlərinin həlli üzrə fəaliyyət mexanizmlərinin öyrənilməsi və tətbiqi imkanlarının araşdırılması;
- Azərbaycanda milli innovasiya sisteminin formalaşdırılması proseslərinin və sənaye sahələrinin innovasiyalaşdırılmasının maliyyə təminatının mövcud vəziyyətinin təhlil edilib qiymətləndirilməsi, iqtisadi-təşkilati, hüquqi və təşviqi xarakterli ehtiyat imkanlarının aşkara çıxarılması və onlardan səmərəli istifadə yollarının müəyyən edilməsi;
- Postpandemiya və müharibə sonrakı prioritetlər kontekstində sənaye sahələrinin innovasiyalaşdırılmasının, maliyyə təminatı mexanizminin, maliyyə problemlərinin digər həlli yollarının müəyyənləşdirilməsi, bunlarla bağlı metodiki və əməli xarakterli təklif və tövsiyələrin hazırlanması.

**Tədqiqat metodları.** Tədqiqat prosesində ilk növbədə dünya elmində daha çox istifadə edilən elmi metodlara, o cümlədən elmi abstraksiya, analiz, sintez, ümumiləşdirmə, müqayisə, statistik təhlil və s. bu kimi metodlara müraciət edilmişdir. Bunlarla bərabər, sənaye sahələrinin inkişaf etdirilməsi, bu sahələrin innovasiyalaşdırılmasının maliyyə problemlərinin həlli ilə bağlı metodoloji yanaşmalar və konsepsiyalar diqqətdə saxlanılmış, müxtəlif ölkə və dünya alimlərinin – tədqiqatçılarının elmi əsərləri, fikirləri, metodoloji yanaşmalar nəzərə alınmışdır.

Bunlarla bərabər bu sahədə dövlət siyasətinin əsas prioritetlərindən, müvafiq ölkə qanunlarından, normativ-hüquqi sənədlərdən, dövlət başçısının fərman və sərəncamlarından, elmi-tədqiqat institutlarının metodoloji materiallarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar** bunlardır:

1. Yüksək texnologiyaların tətbiqinin intensivləşdiyi bir dövrdə sənaye sahələrinin innovasiyalaşdırılmasının maliyyə təminatı problemlərinin həllinə müasir elmi praktiki baxışların formalaşdırılması və daha səmərəli maliyyə təminatı mexanizmlərinin hazırlanmasına konseptual yanaşmaların, üstün metodoloji üslubların müəyyənləşdirilməsinə ehtiyac vardır.
2. Sənaye sahələrinin innovasiyalaşdırılmasında maliyyə problemlərinin daha səmərəli həlli istiqamətlərinin müəyyənləşdirilməsində beynəlxalq təcrübənin dərindən öyrənilməsi və onlardan istifadə, tədqiq edilən sahələrin innovasiya aktivliyinin yüksəldilməsinə, yeni, idxalı əvəz edən, ixracyönümlü çoxçeşidli məhsul istehsalına imkan vermiş olacaqdır.
3. Hazırkı reallıqlar əsas götürülməklə, Azərbaycanda milli innovasiya sisteminin mövcud vəziyyətinin obyektiv araşdırılmasına və sənaye sahələrinin innovasiyalaşdırılmasının maliyyə təminatı problemlərinin kompleks təhlilinə ciddi ehtiyac vardır ki, bu da yeni innovativ infrastrukturun yaradılmasına, zərərlə işləyən müəssisələrin sayının azaldılmasına təminat yaradacaqdır.
4. Ölkədə innovasiyaların işlənilməsi və müxtəlif sənaye sahələrində tətbiq edilməsi tədbirlərinin intensivləşdirilməsində mühüm əhəmiyyət kəsb edən maliyyə təminatı potensialının qiymətləndirilməsi bu istiqamətdə çoxsaylı ehtiyat imkanlarının aşkara çıxarılmasına və onlardan səmərəli istifadə yollarının müəyyən edilməsini şərtləşdirmişdir.
5. Ölkənin perspektivli qeyri-neftqaz sənayesi sahələrinin innovasiyalaşdırılmasının maliyyə probleminin tənzimlənməsində iqtisadi-təşkilati və hüquqi əsasların gücləndirilməsi dövrün tələbi kimi çıxış edir və bu nəticə etibarı ilə emal sənayesinin alt sahələrində ləğv edilən müəssisələrin sayının azalmasına imkan verəcəkdir.

6. Azərbaycanda sənaye sahələrinin innovasiyalaşdırılmasında maliyyə təminatı mexanizminin yenilənməsi, postpandemiya və postkonflikt ərazilərdə maliyyə problemlərinin adekvat həlli yollarının müəyyənləşdirilməsi bu sahədə əhəmiyyətli sosial-iqtisadi səmərə verə bilər.

**Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:**

- Sənaye sahələrinin inkişaf etdirilməsi və inovasiyalaşdırılması proseslərinin maliyyələşdirilməsi problemlərindən yanaşmaqla, orada innovasiyaların dövlət tərəfindən stimullaşdırılması mexanizmlərinin blok-sxemi hazırlanmışdır;
- Sənaye müəssisələrinin innovasiyalaşdırılmasının maliyyə təminatı mənbələri və növləri təsnifatlaşdirilmiş, metodlarının sxemi verilmiş və müasir şəraitdə sənaye sahələrinin innovasiyalaşdırılmasında maliyyə problemlərinin həlli üzrə metodoloji xüsusiyyətlərin blok-sxemi işlənilmişdir;
- Azərbaycanın milli iqtisadi inkişaf modelinin hədəflərinə uyğun Milli İnnovasiya Sisteminin struktur elementləri, funksiyaları, məqsədləri, xassələri və xüsusiyyətləri müəyyənləşdirilmiş, makro, mezo və mikro səviyyələrdə onun blok-sxemi hazırlanmışdır;
- Sənaye sahələrinin innovasiyalaşdırılmasının maliyyələşdirilməsi formaları və təşkili sisteminin elementləri arasında qarşılıqlı əlaqənin alqoritmi hazırlanmışdır;
- Azərbaycanın mühüm sənaye sahələrindən biri kimi – kimya, neftkimya və metallurgiya komplekslərinin innovasiyalaşdırılması və onun maliyyə problemlərinin həlli üzrə Fəaliyyət Strategiyası və konsepsiyasının prioritet istiqamətləri işlənilmişdir;
- Yeni çağırışlar şəraitində postpandemiya və postmüharibə prioritetləri əsas götürülməklə, Azərbaycanda sənaye sahələrinin innovasiyalaşdırılmasının davamlı maliyyə təminatının həlli istiqamətləri müəyyənləşdirilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işində alınmış elmi nəticələrdən, təklif və tövsiyələrdən ölkəmizin ayrı-ayrı sənaye sahələrinin inkişafında, innovasiyalaşdırılmasının

maliyyə problemlərinin həllində, maliyyə mexanizmlərinin təkmilləşdirilməsində, bu istiqamətdə kompleks tədbirlərin görülməsində istifadə oluna bilər. Bunlarla bərabər, tədqiqatda verilmiş materiallardan dərsliklərin və dərs vəsaitlərinin yazılmasında istifadə etmək ehtimalı diqqət çəkir.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin mövzusu Odlar Yurdu Universitetində elmi-tədqiqat işlərinin ümumi istiqamətinə uyğun olmaqla, hazırda aktual məsələlər kimi daimi fəaliyyət göstərən elmi seminarlarda müzakirə edilmiş və təsdiq olunmuşdur.

Dissertasiya işinin mövzusu üzrə iddiaçının 10 elmi əsəri, o cümlədən, 5 məqalə və 5 tezisi, onlardan 1 məqalə və 3 tezisi xaricdə Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu yerli və xarici jurnallarda dərc edilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi**. Üz qabığı və mündəricat (2608 işarə), giriş (18208 işarə), I fəsil (59871 işarə), II fəsil (64417 işarə), III fəsil (84176 işarə), nəticə (12272 işarə) və istifadə olunmuş ədəbiyyat siyahısı (23615 işarə) olmaqla, ümumi həcm 265532 işarədir. Dissertasiyanın işarə sayı cədvəllər, şəkillər, istifadə olunmuş və ədəbiyyat siyahısı istisna olmaqla 229249 işarədir.

# MÜNDƏRİCAT

**GİRİŞ.**

**I FƏSIL. SƏNAYE SAHƏLƏRİNİN İNNOVASİYALAŞDIRILMASININ MALİYYƏ PROBLEMLƏRİNİN HƏLLİ ÜZRƏ NƏZƏRİ-METODOLOJİ YANAŞMALAR**

1.1. Sənaye sahələrinin innovasiyalaşdırılmasının maliyyə təminatının nəzəri əsasları.

1.2. Müasir dövrdə sənaye sahələrinin innovasiyalaşdırılmasında maliyyə təminatı üzrə metodoloji yanaşmalar və onların xüsusiyyətləri

1.3. Sənaye sahələrinin innovasiyalaşdırılmasının maliyyə problemləri üzrə beynəlxalq təcrübə

**II FƏSİL. AZƏRBAYCANDA SƏNAYE SAHƏLƏRİNİN İNNOVASİYALAŞDIRILMASI VƏ MALİYYƏLƏŞDİRİLMƏSİ PROSESLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ**

2.1. Ölkədə milli innovasiya sisteminin formalaşdırılması və inkişaf etdirilməsi kontekstində sənaye sahələrinin maliyyələşdirilməsi proseslərinin tədqiqi.....

2.2. Sənaye sahələrinin innovasiyalaşdırılmasının maliyyə təminatının mövcud vəziyyətinin təhlili

2.3. Sənaye sahələrində innovasiyaların işlənməsi, mənimsənilməsi və tətbiqinin maliyyə təminatı potensialının qiymətləndirilməsi

**III FƏSİL. YENİ REALLIQLAR ŞƏRAİTİNDƏ AZƏRBAYCANDA SƏNAYE SAHƏLƏRİNİN İNNOVASİYALAŞDIRILMASININ MALİYYƏ PROBLEMLƏRİNİN HƏLLİ İSTİQAMƏTLƏRİ**

3.1. İnnovatik inkişafın təminatı və sənaye sahələrinin innovasiyalaşdırılmasının maliyyə təminatının hüquqi tənzimlənməsi və təşkilati-iqtisadi əsaslarının gücləndirilməsi

3.2. Ölkədə sənaye sahələrinin innovasiyalaşdırılmasının maliyyə təminatı mexanizminin təkmilləşdirilməsi

3.3. Postpandemiya və postmüharibə prioritetləri kontekstində sənaye sahələrinin innovasiyalaşdırılmasının maliyyə problemlərinin həlli yolları.

**NƏTİCƏ**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI.**

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **girişində** mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi və s. verilmişdir.

Dissertasiyanın **"Sənaye sahələrinin innovasiyalaşdırılmasının maliyyə problemlərinin həlli üzrə nəzəri-metodoloji yanaşmalar"** adlı **birinci fəslində** sənaye sahələrinin innovasiyalaşdırılmasının maliyyə təminatının nəzəri əsasları baxılmış, müasir dövrdə sənaye sahələrinin innovasiyalaşdırılmasında maliyyə problemlərinin həlli üzrə metodoloji yanaşmalar və onların xüsusiyyətləri müəyyənləşdirilmiş və sənaye sahələrinin innovasiyalaşdırılmasında maliyyə problemlərinin həlli istiqamətlərinə dair beynəlxalq təcrübə araşdırılmışdır.

XX əsrin 30-cu illərindən başalayaraq, J.Şumpeterin nəzəri tədqiqatları daha çox maraq kəsb edir. Ümumilikdə innovasiya fəaliyyətinin konseptual əsasları üzrə daha dərin araşdırmalar məhz onun adı ilə bağlıdır. Şumpeter hesab edirdi ki, sahibkarlar öz fəaliyyətlərində daha çox ixtiraçı xüsusiyyətlərə malikdirlər və onlar istehsal amillərindən səmərəli istifadə etməklə bu istiqamətlərdə yeni ideyaları formalaşdırır və tətbiq edirdilər. J.Şumpeter innovasiyanın sahibkarlıqdakı rolunu ön planan çəkməklə, innovasiyaların əhəmiyyətini əsaslandıra bilmiş və yeni məhsulun formalaşdırılmasında, istehsalında onların əhəmiyyətini xüsusi qeyd etmişdir[2]. Hesab edirik ki, hazırkı iqtisadi fəaliyyət proseslərində, o cümlədən sənaye sahələrinin inkişafında yeni yanaşmalar, innovasiyaların tətbiqi vacib məsələlər kimi qalmaqdadır və bu istiqamətdə dövlət siyasətinin təkmilləşdirilməsi, sənaye sahələrinin innovasiyalaşdırılmasına tələb olunan müvafiq şəraitin yaradılması və xüsusilə maliyyə təminatı problemlərinin həlli yolları müəyyənləşdirilməlidir.

---

[2] Schumpeter, J.A. History of Economic Analysis Oxford University Press, – 1954. – 1260 p. – 354 s.

Praktiki fəaliyyət proseslərində dövlət sənaye müəssisələrinin innovasiya fəaliyyətini dəstəkləmək üçün müxtəlif vasitələrdən istifadə edir. İnnovasiyaları dəstəkləmək funksiyalarından biri dövlət məqsədli proqramların formalaşması və həyata keçirilməsini idarə etməkdir və bunlar öz əksini mexanizm formasında şəkil 1-də tapmışdır.




**Şəkil 1. Sənaye sahələrində dövlətin innovasiya sahəsində siyasətinin prioritetləri və müasir reallıqlar əsasında innovativ inkişafın tsiklik modeli (mənbə: müəllif tərəfindən hazırlanıb).**

Sənaye müəssisələrinin innovasiyalaşdırılması üçün tələb olunan maliyyə resurslarının mənbəyi və növlərinin xarakteristikası cədvəl 1-də verilmişdir.

**Cədvəl 1**

**Sənaye müəssisələrinin innovasiyalaşdırılmasının maliyyə təminatı mənbələri və növlərinin təsnifatı**

| Təsnifat əlaməti | Mahiyyəti |
|---|---|
| Mənbəyinə görə | - müxtəlif idarəetmə səviyyələrində ayrılan büdcə vəsaitləri;<br>- büdcədənkənar fondların vəsaitləri;<br>- şirkətlərin öz vəsaitləri;<br>– kredit və maliyyə institutlarının vəsaitləri (banklar, investisiya fondları və şirkətlər, qeyri-dövlət pensiya fondları, sığorta şirkətləri);<br>– xarici investorların vəsaitləri;<br>- investisiya banklarının resursları;<br>- fiziki şəxslərin vasitələri;<br>- yerli və xarici elm fondlarının resursları;<br>- ictimai birliklərin vasitələri;<br>- səhmlər;<br>- dövlət kreditləri. |
| Mülkiyyət formasına görə | - müəssisənin öz resursları (xalis mənfəət, amortizasiya ayırmaları);<br>– cəlb edilmiş vəsaitlər (səhmlərin, istiqrazların və digər qiymətli kağızların emissiyası, xarici investorların vəsaitləri, vençur resursları, sığorta, investisiya fondları, qrantlar, subsidiyalar, səhmlərdə iştirak, sponsorların resursları şəklində məqsədli dövlət fondları);<br>– borc vəsaitləri (lizinq, maliyyə-kredit təşkilatlarından kreditlər). |
| İdarəetmə formasına görə | - dövlət (dövlət büdcəsi fondları, büdcədənkənar və xüsusi fondlar);<br>- sektoral (sahə və sahələrarası büdcədənkənar fondların vəsaitləri, bankların və beynəlxalq təşkilatların kreditləri);<br>- regional (regionların büdcə fondları və qeyri-büdcə fondları);<br>- institusional (müəssisənin öz resursları, maliyyə-istehsalat birliklərinin vəsaitləri, büdcə və qeyri-büdcə fondları). |
| Resursların cəlb edilmə müddətindən asılı olaraq | - qısamüddətli (1 ilədək);<br>– orta müddətli (1-3 il);<br>– uzunmüddətli resurslar (3 ildən). |
| İnnovasiya sahəsində layihənin həyat dövrünün mərhələsindən asılı olaraq | - inkişaf mərhələsində qoyulmuş maliyyə resursları (öz vəsaitləri, dövlət vəsaitləri, vençur fondları);<br>- layihənin tətbiqi mərhələsində istifadə olunan maliyyə vəsaitləri (birbaşa dövlət dəstəyi, özəl investorların vəsaitləri);<br>- artım mərhələsində istifadə olunan maliyyə resursları (bank kreditləri, vençur fondlarından vəsaitlər);<br>- davamlı artım mərhələsində istifadə olunan maliyyə resursları (ən sərfəli şərtlərlə bank kreditləri); |
| İnvestisiya subyektinə görə | - kiçik və orta sahibkarlıq subyektlərinin maliyyə resursları (şirkətlərin öz vəsaitləri, məqsədli suveren fondlar, innovativ layihələrin inkişafı proqramları üzrə bankların vəsaitləri);<br>- iri müəssisələrin resursları (öz resursları, dövlət büdcəsinin vəsaitləri, dövlət büdcə və büdcədənkənar fondlar, kredit resursları, investisiya, pensiya və vençur fondlarından vəsaitlər, xarici investorların vəsaitləri); – elmi müəssisələrin vəsaitləri (dövlət fondları, xarici investorların fondları, vençur fondları). |

**Mənbə: müəllif tərəfindən tərtib edilib.**

Məlumdur ki, sənaye sahələrinin innnovasiyalaşdırılmasının maliyyə bazasının formalaşması üçün bir neçə mənbə var ki, bunlardan ən əsas olanları həmin sənaye sahələrinin öz vəsaitləri

(mənfəət və amortizasiya), büdcə vəsaitləri (ölkənin təsis qurumlarının, bələdiyyələrin vəsaitləri), bank kreditləri və digər borc vəsaitləridir.

Qlobal aspektdə və konseptual səviyyədə baxmaq istəsək, müasir şəraitdə sənaye sahələrinin innovasiyalaşdırılmasında maliyyə problemlərinin həlli üzrə metodoloji yanaşmaların xüsusiyyətlərinin blok-sxemini şəkil 2-dəki kimi formalaşdırmışıq.




**Şəkil 2. Müasir şəraitdə sənaye sahələrinin innovasiyalaşdırılmasında maliyyə problemlərin həlli üzrə metodoloji yanaşmaların xüsusiyyətlərinin blok-sxemi (müəllif tərəfindən hazırlanmışdır).**

Digər tərəfdən, sənaye sahələrinin innovasiyalaşdırılması və maliyyə mexanizmi kifayət qədər çoxfunksiyalı və cəlbedici olmalıdır ki, bu istiqamətdə fəaliyyətin davamlı şəkildə planlaşdırılması və nəzərdə tutulan layihələrin gəlirlik səviyyəsinə çıxmasına qədər maliyyələşdirilməsi problemləri həll edilsin.

ABŞ-ın innovasiya sisteminin əsasını məhz elmi-tədqiqat institutları və universitetlər təşkil edir. Onlar ölkənin əsas elmi tədqiqatlarının çox hissəsini və tətbiqi tədqiqatların əksəriyyətini cəmləşdirir. ABŞ-ın innovasiya sistemində mühüm rolu tətbiqi elmin müəyyən sahəsinin inkişafı ilə məşğul olan tədqiqat universitetləri oynayır. ABŞ-dan fərqli olaraq, hazırda bir çox göstəricilərinə görə dünya iqtisadiyyatının önündə gedən Çinin elm və texnologiya sektoru kifayət qədər mərkəzləşib: ölkədə Elm və Texnologiya Nazirliyi var. Çində Amerika və Avropa şirkətlərinin əməkdaşlığa cəlb edilməsi və bunun nəticəsində təcrübə, bilik və texnologiyanın mənimsənilməsi ilə autsorsinqə meyl var idi. Sinqapurda hökumətin üçüncü tərəflərlə birbaşa subsidiyalar və ya birgə maliyyələşdirmə təmin etdiyi və ya vergi tutulan gəlirdən investisiya itkiləri üçün ayırmalar təklif etdiyi sxemlər mövcuddur. Bundan əlavə: *"hökumət sənaye sahələrinin innovasiyalaşdırılmasının maliyyələşdirilməsi üçün pul qrantları, kapitalın maliyyələşdirilməsi, biznes inkubator, borc maliyyələşdirmə sxemləri və vergi güzəştləri sistemi yaratmışdır"*[3].

Azərbaycan dünya təcrübəsindən bəhrələnməklə yanaşı, özünün iqtisadi inkişaf modelinin hədəflərinə və resurs potensialına, işğaldan azad olunmuş ərazilərdə yaradılan yeni resurs imkanlarına uyğun olaraq sənaye sahələrinin innovasiyalaşdırılması siyasəti formalaşdırmalı və həyata keçirilməlidir.

İşin **"Azərbaycanda sənaye sahələrinin innovasiyalaşdırılması və maliyyələşdirilməsi proseslərinin qiymətləndirilməsi"** adlı **ikinci fəslində** ölkədə milli innovasiya sisteminin formalaşdırılması, inkişaf etdirilməsi və sənaye sahələrinin maliyyələşdirilməsi proseslərinin təhlili aparılmış,

[3] Янбаева, Ф.Р. Финансирование инноваций: опыт Сингапура / Ф.Р. Янбаева // Инновационная экономика и современный менеджмент. – 2018. № 2, – с. 19.

sənaye sahələrinin innovasiyalaşdırılmasının və maliyyə təminatının mövcud vəziyyəti araşdırılmış, innovasiyaların işlənməsi, mənimsənilməsi və sənaye sahələrində tətbiqinin maliyyə təminatı potensialının qiymətləndirilməsi təmin edilmişdir.

Azərbaycanda MİS-in əsas elementlərinin və institusional strukturunun yaradılması, innovasiya proseslərində müxtəlif strukturlar arasında əlaqələrin genişləndirilməsi və gücləndirilməsi, yeniliklərin və əqli mülkiyyət obyektlərinin kommersiyalaşdırılması mexanizmlərinin təkmilləşdirilməsi, elmi-texniki məhsullar bazarının formalaşdırılması, regionların və sənaye sahələrinin innovasiyalı inkişafının maliyyə və kadr təminatı problemlərinin aradan qaldırılması diqqət mərkəzində saxlanılmalıdır[4]. MİS-in fəaliyyətində əsas rol tənzimləyici bazanın qurulması yolu ilə fəaliyyət qaydalarını və innovasiya prosesinin müəllifləri arasında münasibətləri müəyyən edən dövlətə verilməlidir.

Şəkil 3-də isə Azərbaycanda sənaye istehsalı həcminin 2012-2023-cü illərdə dinamikası baxılmışdır.




**Şəkil 3. Azərbaycan Respublikasında 2012-2023-cü illər üzrə sənaye istehsalının ümumi həcminin dinamikası, mlyn. manat. Mənbə: ARDSK– https://www.stat.gov.az/.**

Şəkil 3-dən baxsaq görə bilərik ki, 2012-2023-cü illərdə sənaye istehsalının həcmi 2 dəfəyə yaxın artmışdır. Əhəmiyyətli artım 2022-ci ildə baş vermişdir və bu göstərici 2021-ci illə

[4] Hüseynova, A.D. Azərbaycanda innovasiya potensialının idarə edilməsi mexanizminin təkmilləşdirilməsi. İ.e.d. avtoreferatı. – Bakı, 2015. – s.39.

müqayisədə 36,1 % təşkil etmişdir. Amma 2023-cü ildə bu göstərici 2022-ci il nisbətdə azalmışdır (-28,4 %).

Şəkil 4-də isə Azərbaycanda 2012-2023-cü illərdə emal sənayesi məhsulunun ümumi dinamikası verilmişdir. Təhlil olunan dövr ərzində artım 2,63 dəfə olmuşdur. Xüsusilə 2021-2023-cü illərdə əvvəlki illərlə nisbətən daha çox artım qeydə alınmışdır və hesab edirik ki, emal sənayesi sahələrinin innovasiyalaşdırılması sürətləndirildikcə, artımın dinamikliyi daha da intensivləşəcəkdir.




**Şəkil 4. Azərbaycanda 2012-2023-cü illərdə emal sənayesi məhsulunun dinamikası, mlrd. manatla (mənbə: ARDSK-nın məlumatları üzrə hazırlanmışdır – https://www.stat.gov.az/.)**

Qeyri-neft sənayesinin önəmli potensiala malik ixracyönlü sahələrindən biri kimi kimya və neftkimya kompleksi böyük əhəmiyyət kəsb edir.

Şəkil 5-də ölkəmizin kimya sənayesində 2012-2023-cü illərdə məhsul istehsalının ümumi həcminin dinamikası əks olunmuşdur. Son illərdə bu sahədə məhsul istehsalı xeyli artmışdır və bunun əsas səbəbi 2 iri istehsal qurğusunun, ixracyönlü SOCAR Polimer və SOCAR Karbamid müəssisələrinin fəaliyyətə başlaması və istehsal həcminin artırılmasıdır.




**Şəkil 5. Azərbaycanın kimya sənayesində məhsul istehsalının dinamikası, mln. manat, 2012-2023-cü illər (mənbə: ARDSK-nın məlumatlarına əsasən hazırlanmışdır – https://www.stat.gov.az/.)**

Şəkil 6-da Azərbaycanda metallurgiya sənayesinin 2015-2023-cü illər ərzində fəaliyyəti təhlil olunmuşdur və bu dövr ərzində ümumi məhsul istehsalının həcmi 4,75 dəfə yüksəlmişdir. Bununla belə, ölkəmizdə metalurgiya sənayesinin daha geniş imkanlarının olduğunu qeyd etməliyik və bu proseslərdə innovasiya layihələrinin hazırlanması, cəlbedici maliyyə təminatı mexanizmlərinin müəyyənləşdirilməsi tədbirlərinə ehtiyac vardır.




**Şəkil 6. Azərbaycanda metallurgiya sənayesi üzrə məhsul istehsalı, 2015-2023-cü illər, mln. manat. Mənbə: ARDSK – https://www.stat.gov.az/.**

Cədvəl 3-də Azərbaycanda 2010-2023-cü illərdə əhəmiyyətli dəyişikliklərə məruz qalmış və ya yeni tətbiq olunmuş innovasiya məhsulunun iqtisadi fəaliyyət növləri üzrə həcmi verilmişdir.

**Cədvəl 3**

**Azərbaycanda 2012-2023-cü illərdə əhəmiyyətli dəyişikliklərə məruz qalmış və ya yeni tətbiq olunmuş innovasiya məhsulunun iqtisadi fəaliyyət növlərinə üzrə həcmi, min manat**

| İqtisadi fəaliyyət növləri | 2012 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 | 2012-2023: +/- |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Sənaye - cəmi | 23052 | 929,7 | 35747 | 14777 | 28952,2 | 21698,1 | 11759,7 | 60977,2 | 72826,9 | 62400,8 | +270,7 % |
| Mədənçıxarma sənayesi | 396,1 | - | 129,6 | - | 215,3 | 2495,7 | 2415,5 | 2843,4 | 3972,1 | - | +10,1 dəfə (2022/2012) |
| Emal sənayesi, onlardan | 22656 | 929,7 | 35617 | 14777 | 28736,9 | 19202,4 | 9344,2 | 58133,8 | 68854,8 | 62400,8 | +275,4 % |
| Qida məhsullarının istehsalı | | | 402,5 | 590 | 831,2 | 328,0 | - | 3859,2 | 7307,3 | 2500,0 | +6,2 dəfə (2023/2016) |
| İçki istehsalı | 18200 | 758 | 41,5 | - | - | - | | | | 1919,0 | -9,48 dəfə |
| Toxuculuq sənayesi | | | 12844 | - | - | - | 2121,3 | - | - | - | - |
| Geyim sənayesi | | | 5213 | - | - | - | - | - | - | - | - |
| Dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı | | | 48 | - | - | - | - | - | - | - | - |
| Ağac emalı və ağacdan məmulatların istehsalı | | | | - | - | - | - | - | - | - | - |
| Neft məhsullarının istehsalı | | | | - | - | - | - | - | - | - | - |
| Kimya sənayesi | 3049 | 13,4 | 522,4 | 1705 | 55,0 | - | - | - | - | - | - |
| Rezin və plastik kütlə məmulatlarının istehsalı | | | 171,3 | - | - | - | - | - | - | - | - |
| Tikinti materiallarının istehsalı | | | 6586 | - | - | - | - | - | - | 181,8 | - |
| Metallurgiya sənayesi | | | 500 | 2176 | 7690,0 | 12560,0 | 2436,7 | 53035,2 | 61000,0 | 57800,0 | - |
| Maşın və avadanlıqlardan başqa hazır metal məmulatlarının istehsalı | | | 9113 | - | - | - | - | - | - | - | - |
| Kompüter və digər elektron avadanlıqların istehsalı | 20,4 | | | 9990 | 19937,9 | 6073,2 | 4742,0 | 1239,4 | 547,5 | - | - |
| Elektrik avadanlıqlarının istehsalı | | | | - | - | - | - | - | - | - | - |
| Maşın və avadanlıqların istehsalı | 890,3 | 158,3 | 174,9 | 216 | 222,8 | 241,2 | 44,2 | - | - | - | - |
| mebellərin istehsalı | | | | - | - | - | - | - | - | - | - |
| Maşın və avadanlıqların quraşdırılması və təmiri | 496,8 | | | - | - | - | - | - | - | - | - |

**Mənbə: ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır. https://www.stat.gov.az/**

Cədvəl 3-ü təhlil etsək, görərik ki, görərik ki, ölkəmizdə innovasiya məhsulunun həcmi xeyli aşağıdır və təəssüf ki, qeyri-neftqaz sektorunun innovasiya potensialını əks etdirən göstəricilər diqqət çəkmir.

Şəkil 7-də Azərbaycanda 2012-2023-cü illərdə sənaye sahələri üzrə texnoloji innovasiyalara çəkilən xərclərin ümumi dinamikası və qeyd etdiyimiz kimi, müəssisələrinin şəxsi vəsaitlərinin payı verilmişdir.




**Şəkil 7. Azərbaycanda sənaye sahələri üzrə texnoloji innovasiyalara çəkilən xərclər və onların strukturunda müəssisələrin öz vəsaitlərinin həcmi, min man. (Mənbə: ARDSK məlumatları əsasında müəllif tərəfindən hazırlanıb - https://stat.gov.az/source/industry/)**

Şəkil 7-dən yanaşsaq, ölkəmizdə sənaye sahələrində texnoloji innovasiyalara çəkilən xərclər qeyri-bərabər artmışdır.

Dissertasiya işinin **“Yeni reallıqlar şəraitində Azərbaycanda sənaye sahələrinin innovasiyalaşdırılmasının maliyyə problemlərinin həlli istiqamətləri”** adlı **üçüncü fəsildə i**nnovatik inkişafın təminatı və sənaye sahələrinin innovasiyalaşdırılmasının maliyyə problemlərinin tənzimlənməsinin iqtisadi-təşkilati və hüquqi əsaslarının gücləndirilməsi məsələləri baxılmış, ölkədə sənaye sahələrinin innovasiyalaşdırılmasının maliyyə təminatı mexanizmi hazırlanmış, postpandemiya və

postmüharibə prioritetləri kontekstində sənaye sahələrinin innovasiyalaşdırılmasının maliyyə problemlərinin həlli yolları müəyyənləşdirilmişdir.

Sənaye sahələrinin innovasiyalaşdırılmasının maliyyələşdirilməsi obyektlərinin təxmini sxemini şəkil 8-də vermişik.




**Şəkil 8. Sənaye sahələrinin innovasiyalaşdırılmasının maliyyələşdirilməsi obyektləri (Mənbə: müəllif tərəfindən tərtib olunub).**

Ölkəmizdə qeyri-neftqaz sənaye sahələri içərisində kimya və neftkimya kompleksinin, həmçinin metallurgiya kompleksinin güclü istehsalı və ixrac potensialı vardır. Kimya və neft kimya kompleksində son illər iri istehsalat qurğularının istismara verilməsini qeyd etmişdik, ancaq bunlar SOCAR-ın tərkibində mümkün olmuşdur. Bazar iqtisadiyyatının şərtlərinə uyğun şəkildə bu mühüm sənaye sahələrinin inkişaf etdirilməsi üçün konseptual yanaşmalar və fəaliyyət strategiyalarının işlənilməsi və tətbiqinə ehtiyac vardır.

Şəkil 9-da Azərbaycanın kimya və neft kimya kompleksinin innovasiyalaşdırılması və onun maliyyə problemlərinin həlli üzrə Fəaliyyət Strategiyasını təklif edirik.

**Kimya və neft kimya kompleksinin innovasiyalaşdırılması və onun maliyyə problemlərinin həlli üzrə Fəaliyyət Strategiyasının tərkib hissələri**

**I Kimya və neftkimya kompleksinin innovasiyalaşdırılması prioritetləri**

- ✓ Kimya və neftkimya kompleksində özəl sahibkarlığın və biznesin rolunun artırılması tədbirlərinin görülməsi
- ✓ Kimya və neftkimya sahəsində dövlət-özəl sektor əməkdaşlığının gücləndirilməsi
- ✓ Neftkimya sferasında emala verilən neft və təbii qaz xammallarının həcminin artırılmasın təmin edilməsi
- ✓ Əlavə istehsal zənciri üzrə yüksək texnologiyalar əsaslı kimya və neftkimya müəssisələrinin yaradılması üzrə prioritet layihələrin reallaşdırılması
- ✓ Kimya və neftkimya kompleksində yeni innovasiyaların tətbiqi problemlərinin həll olunması və s.

**II Kimya və neftkimya kompleksinin innovasiyalaşdırılmasının maliyyə təminatı mexanizmləri və mənbələri**

- ✓ Kimya və neftkimya kompleksinə özəl investisiyaların geniş həcmdə cəlb olunmasının maksimum stimullaşdırılması
- ✓ Dünyanın analoji investor şirkətləri ilə əlaqələrin yaradılması, ölkəmizdə müştərək müəssisələrinin təşkili tədbirlərinin görülməsi
- ✓ Ölkənin bank-kredit təşkilatları ilə kimya və neftkimya kompleksi subyektləri arasında məqsədli innovasiya-investisiya layihələrinin hazırlanması və tətbiqi
- ✓ Kimya və neftkimya kompleksində innovasiya-investisiya layihələrinin reallaşdırılması üzrə dövlət dəstəyi mexanizmlərinin hazırlanması və tətbiqi
- ✓ Ölkəmizin Neft Fondundan kimya və neftkimya kompleksinin innovasiya əsaslı və rəqabət qabiliyyətli, ixracyönlü müəssisələrin yaradılması üzrə məqsədli şəkildə maliyyə resurslarının ayrılması və s.

**Şəkil 9. Azərbaycanın kimya və neft kimya kompleksinin innovasiyalaşdırılması və onun maliyyə problemlərinin həlli üzrə Fəaliyyət Strategiyasının tərkib hissələrinin blok-sxemi (müəllif tərəfindən hazırlanmışdır).**

Şəkil 10-da Azərbaycanın metallurgiya kompleksinin innovasiyalaşdırılmasının intensivləşdirilməsi və maliyyə mexanizmlərinin təmin olunması Konsepsiyasının əsas prioritet istiqamətlərinin blok-sxemini vermişik.

**Metallurgiya kompleksinin innovasiyalaşdırılmasının intensivləşdirilməsi və maliyyə mexanizmlərinin təmin olunması Konsepsiyasının əsas prioritet istiqamətləri**

I Metallurgiya kompleksinin innovasiyalaşdırılması istiqamətləri

- Metallurgiya kompleksinin bazar iqtisadiyyatı şərtlərinə çevik cavab verə bilən idarəetmə strukturunun yaradılması
- Metallurgiya müəssisələrinin yenidən qurulması və modernləşdirilməsi tədbirlərinin görülməsi
- Yeni innovasiyaların tətbiqinin kompleks və sistemli şəkildə təmin olunması məqsədilə müasir metallurgiya klasterinin yaradılması
- Metallurgiya müəssisələrinin xarici bazarlara innovasiyayönlü məhsullarla daha intensiv çıxmağının stimullaşdırılması

II Metallurgiya kompleksinin innovasiyalaşdırılmasının maliyyə mexanizmləri və mənbələri

- Metallurgiya kompleksinin innovasiyalaşdırılması üzrə beynəlxalq investisiya-innovasiya qrant müsabiqəsinin keçirilməsi
- Metallurgiya kompleksində innovasiyayönlü və ixrac əsaslı layihələrin hazırlanması və təşkilinə dünyanın bu sahədə ixtisaslaşmış iri şirkətlərinin, xüsusilə investisiya-innovasiya fondlarının cəlb olunması
- Metallurgiya kompleksinin subyektləri ilə bank-kredit təşkilatları arasında əməkdaşlığın yeni səviyyəyə qaldırılması və prioritet layihələrin maliyyə mexanizmlərinin işlənilməsi və tətbiqi
- Dövlət tərəfindən metallurgiya kompleksinin inkişafının sürətləndirilməsi və innovasiyaların tətbiqi problemlərinin maliyyə mexanizminin təmin olunması tədbirlərinin görülməsi, xüsusi fəaliyyət rejimlərinin formalaşdırılması və s.

**Şəkil 10. Azərbaycanın metallurgiya kompleksinin innovasiyalaşdırılmasının intensivləşdirilməsi və maliyyə mexanizmlərinin təmin olunması Konsepsiyasının əsas prioritet istiqamətlərinin blok-sxemi (müəllif tərəfindən hazırlanmışdır).**

Fikrimizcə, ölkəmizin metallurgiya sənayesinin innovasiyalaşdırılması həm də strateji əhəmiyyət kəsb edir. Belə ki, işğaldan azad olunmuş ərazilərin bərpası proseslərində davamlı şəkildə və iri həcmdə metallurgiya məhsullarına ehtiyac vardır. Eyni zamanda, bu məhsullar üzrə ixrac potensialının formalaşdırılması perspektivləri də diqqət çəkir.

Ümumilikdə, qeyri-neftqaz sənayesi sahələrinin innovasiyalaşdırılmasının maliyyə mexanizmlərinin kompleks və sistemli şəkildə, həm də uzunmüddətli dövr üçün hazırlanması və tətbiqi bu sahələrin inkişafına əlavə stimullar verə bilər və s.

**Dissertasiyanın “Nəticə” bölməsində tədqiqatın mahiyyətindən irəli gələn elmi-təcrübi əhəmiyyətə malik nəticələr əldə edilmiş və təkliflər verilmişdir:**

1. Sənaye sahələrinin innovasiyalaşdırılmasının maliyyə mexanizminin formalaşdırılması və onun tərkib elementləri kimi bunları fərqləndirmişik: 1) sənaye sahələrinin maliyyə idarə edilməsi üsulları; 2) maliyyə alətləri; 3) sənaye sahələrində inkişaf etmiş daxili tənzimləmə sistemi; 4) hüquqi tənzimləmə və 5) sənaye sahələrinin maliyyə idarəçiliyinə informasiya və metodiki dəstək.
2. Elm və texnologiyalar tutumlu, innovasiya yönümlü məhsulların istehsalının strukturunun və çeşidinin genişləndirilməsi məqsədilə, ölkənin sənaye sahələrinin innovasiyalaşdırılması istiqamətində məqsədli fəaliyyət proqramları və strategiyaları hazırlanaraq reallaşdırılmalıdır;
3. Ölkəmizdə, ixracyönlü və innovasiyaların tətbiqi üçün güclü potensiala malik qeyri-neftqaz sənayesi sahələrinin innovativ inkişafını ləngidən səbəblər dərindən araşdırılmalı, adekvat tədbirlər görülməli və ilk növbədə maliyyə təminatı mexanizmlərinin səmərəliliyinin artırılması təmin olunmalıdır;
4. Azərbaycanda kifayət qədər yüksək innovativ aktivliyi olan sənaye sahəsi kimi kimya və neft-kimya sənayesinin, onun müəssisələrinin potensialını qeyd etmək olar və hesab edirik ki bu sənaye sahəsində iri innovasiya-investisiya layihələrinin həyata keçirilməsi mümkündür;
5. İnnovativ inkişaf dövründə müəssisələrin rəqabət mühitinə davam gətirməsi üçün innovasiya fəaliyyətini genişləndirmək, onun idarəetmə mexanizmlərini təkmilləşdirmək, maliyyə tutumlu texnologiyalar bazarına innovasiya məhsullarını çıxarmaq istiqamətində hədəflər qarşıya qoymalı və bu istiqamətdə innovasiya fəaliyyəti ilə bağlı proseslərə dövlət dəstəyi mexanizmlərinin əhatəsini genişləndirmək, səmərəliliyini artırmaq vacibdir.
6. Hesab edirik ki, Azərbaycanda innovasiya proseslərinin sürətləndirilməsi üçün bir sıra və xüsusilə sənaye müəssisələrinin innovasiyalaşdırılması proseslərinin intensivləşdirilməsi üçün bir

qrup tədbirlərin görülməsinə ciddi zərurət vardır. Azərbaycanda innovasiya fəaliyyəti ilə bağlı qanunvericilik bazasının formalaşdırılması prosesləri axıra çatdırılmalı və ölkədə "İnnovasiya fəaliyyəti haqqında" Qanun qəbul edilməlidir.

7. Vençur maliyyələşdirilməsini dəstəkləmək üçün dövlət fəaliyyətinin bəzi sahələrini qeyd etmək istərdik: 1) İnnovativ və vençur fəaliyyətinin hüquqi tənzimlənməsinin təkmilləşdirilməsi. 2) Vençur biznesinin inkişafı üçün əlverişli iqtisadi şəraitin yaradılması. 3) Əqli mülkiyyət obyektlərinin yaradılması zamanı yaranan hüquqi problemlərin dərhal həlli və 4) Ölkənin elmi-texniki inkişafının planlaşdırılmasının təkmilləşdirilməsi.

8. Ölkə iqtisadiyyatının qarşısında duran strateji hədəflər, milli iqtisadi inkişaf modelinin yeni səviyyəyə qaldırılması, iqtisadi artımın və maliyyə vəsaitlərinin daha məhsuldar mənbələrinin formalaşdırılması üçün güclü potensiala malik sənaye sahələrinin, ilk növbədə qeyri-neftqaz sənayesi sahələrinin, daha konkret ağır maşınqayırma sənayesi sahələrinin innovativ və ixrac potensialından səmərəli istifadə olunması məqsədilə, ümumilikdə sənaye sahələrinin innovasiyalaşdırılması proseslərinin intensivləşdirilməsi təmin edilməlidir. Bu qeyd olunanlar əsas götürülməklə "2025-2030-cu illərdə Azərbaycanda sənaye sahələrinin innovasiyalaşdırılmasının sürətləndirilməsi və maliyyə təminatı mexanizmlərinin həlli üzrə Dövlət Proqramı"nın hazırlanması və qəbul edilməsini vacib sayırıq və təklif edirik və s.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU AŞAĞIDAKI ELMİ ƏSƏRLƏRDƏ DƏRC EDİLMİŞDİR:

1. Postpandemiya dövründə sənaye sahələrinin innovasiyalaşdirilmasinin maliyyə mexanizmlərinin gücləndirilməsi istiqamətləri. "İnformasiya cəmiyyətində iqtisadiyyatın davamlı inkişaf problemləri" / Beynəlxalq elmi konfrans, SDU. 16–17 dekabr 2021-ci il. S.375-379.

2. Sənaye müəssisələrinin innovasiyalaşdırılmasının maliyyə təminatı mexanizmlərinin nəzəri-metodoloji aspektləri. «AMEA-nın Xəbərləri» jurnalı. İqtisadiyyat seriyası, Bakı.2021, № 04, S. 167-176 .

3. Azərbaycanda sənaye sahələrinin innovasiyalaşdırılması proseslərinin müasir vəziyyətinin qiymətləndirilməsi. “İnnovasiyalı iqtisadiyyat və Menecment”, ATU, Gəncə, 2022, № 04, S.277-283.

4. Müasir dövrdə sənaye sahələrinin innovasiyalaşdırılmasının maliyyə problemlərinin strateji aspektləri. “Geostrategiya” jurnalı, Bakı, 2022, № 06 (72), S. 166-170.

5. Qlobal transformasiyalar şəraitində sənaye sahələrinin innovasiyalaşdırılmasının maliyyə təminatı problemləri. “İnnovasiyalı iqtisadiyyat və Menecment”, ATU, Gəncə, 2023, № 01, S. 231-238.

6. Sənaye sahələrinin innovasiyalaşdırılmasının maliyyə problemlərinin həlli üzrə dünya təcrübəsi. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş “Dövlətlərarası iqtisadi əlaqələr: müasir çağırışlar və perspektivlər” mövzusunda Beynəlxalq Elmi Konfrans, Sumqayıt Dövlət Universiteti, 25-26.05.2023, s. 204-207.

7. Основные проблемы и пути решении финансирование инноватизации промышленные сферы Азербайджана. Журнал «Финансовая экономика», Москва, 2023, №12, с. 273-277.

8. Пути совершенствования экономико-организационных и финансовых механизмов инновационного развития ненефтегазовых отраслей промышленности Азербайджана. Сборник материалов "Мировая глобализация: фундаментальные и прикладные аспекты", Москва, РФ, 28.12.2023. - S. 40-49.

9. Modern aspects of innovation processes of industrial areas in Azerbaijan in new conditions. Proceedings of the 14th International Scientific and Practical Conference «Scientific Horizon in the Context of Social Crises». Tokyo, Japan, September 6-8, 2023, №169, s. 7-14.

10. Financial problems of innovating industrial sectors in the conditions of global financial transformations / Proceedings of the 12th International Scientific and Practical Conference «International Forum: Problems and Scientific Solutions», Melbourne, Australia, October 16-18, 2023, №174, s. 52-59.

Dissertasiyanın müdafiəsi 04 aprel 2025-ci il tarixində saat 11-$^{00}$-da AR ETN İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.10 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1143, Bakı şəh., H.Cavid pr., 115

Dissertasiya ilə AR ETN İqtisadiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AR ETN İqtisadiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir (www,economics.org.az)

Avtoreferat "18" fevral 2025-ci ildə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:11.02.2025
Kağızın formatı: A5
Həcm: 31 579 işarə
Tiraj: 100 ədəd